# Kəlbəcərin elektrik enerjisi ilə dayanıqlı təminatı istiqamətində tədbirlər görülür

“Azərişıq” ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Kəlbəcərin elektrik enerjisi ilə təchizatını dayanıqlı və keyfiyyətli etmək üçün əsaslı işlər görülür.

110 kV-luq Kəlbəcər xəttinə elektrik enerjisi ötürəcək Daşkəsəndə yerləşən 110 kV-luq yeni “Daşkəsən” yarımstansiyası inşa olunur.

Həmçinin mənbə kimi istifadə olunacaq “Gəncə-2” yarımstansiyasından Daşkəsənə, 110 kV-luq “Daşkəsən” yarımstansiyasını qidalandıracaq yeni çəkilən 110 kV-luq elektrik verilişi xəttinin dayaqlarının tikilməsi prosesi də davam edir. **Bu xətt Azərbaycanda ən mürəkkəb və çətin relyeflərdən keçən yüksəkgərginlikli xətt kimi tarixə düşə bilər.** Xəttin keçdiyi dağlarda texnikanın rahat hərəkət etməsi üçün öncə yol çəkilib. İşlər gecə saatlarında da davam edir. Xətt boyu çəkilən yollar “Daşkəsən” yarımstansiyasınadək uzanır.

Əsas məqsəd Kəlbəcər rayonunu, həmçinin Daşkəsənin ucqar dağ kəndlərini dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin etməkdir. Kəlbəcər xəttinin üzərində 110 kV-luq yeni “Əhmədli” yarımstansiyası da inşa olunub. Yarımstansiyadan çıxan və yeni inşa olunan 35 kV-luq “Zağalı” xətti Daşkəsən rayonunun 30-dək ucqar dağ kəndini dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin edəcək. İşlər yekunlaşmaq üzrədir.

Azərbaycan.- 2021.- 21 sentyabr.- S.5.